# Bir ömrün missiyası: Xalq və dövlət naminə

***1969**-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ölkəmizin tarixində əsaslı dönüş mərhələsi olmuşdur. Heydər Əliyev respublikamıza rəhbər təyin olunana qədər Azərbaycana ögey münasibət göstərilirdi. Şübhəsiz ki, keçmiş SSRİ rəhbərliyinin xalqımıza qarşı bu cür münasibətinə düşmənimiz olan ermənilərin də fitnəkarlığı təsir edirdi. Dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə, bir sözlə, xalqımızın mənsub olduğu bütün xüsusiyyətlərə təcavüz edilirdi. O vaxtlar Təhlükəsizlik orqanlarında çalışan Heydər Əliyev bunları yaxşı görür, vəziyyətdən çıxış yolu axtarırdı. Ümummilli Liderin Azərbaycana rəhbər təyin edilməsi ilə ölkəmizin üzləşdiyi çətinliklər, təqib və təzyiqlər aradan qaldırılırdı. Demək olar ki, baş verən xoşagəlməz hallara son qoyuldu.*

Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə təyinatı sözsüz ki, Ulu Öndərin liderlik keyfiyyətlərinə, təşkilatçılıq bacarığına, şəxsi intelektual imkanlarına ovaxtkı SSRİ rəhbərliyi tərəfindən verilən yüksək qiymətin göstəricisi idi. Heydər Əliyev bu etimadın müqabilində respublikanın inkişafını təmin edən bir lider kimi özünü təsdiq etdi. İndi bunu aydın dərk edirik ki, Ulu Öndər həmin dövrdəki fəaliyyəti ilə həm də sovet dövlətinin iqtisadi imkanlarını Azərbaycanın uzun illər sonrakı tərəqqisi və nəticə etibarı ilə indiki müstəqil dövlətçiliyimiz üçün maksimum dərəcədə sərf etməyi bacarmışdı. Belə ki, Ümummilli Lider böyük siyasi iradə nümayiş etdirərək respublikanın İttifaq büdcəsinin imkanlarından maksimum yararlanmasını təşkil etmiş, fövqəldövlətin xammal bazası kimi tanınan Azərbaycanın sənaye mərkəzinə çevrilməsinə nail olmuşdu. Respublikanın sənaye və kənd təsərrüfatında, ümumiyyətlə ictimai həyatın bütün sahələrində yüksəliş mərhələsi başlanmışdı. Respublikaya rəhbərliyinin ilk günlərindən xalqın sabahını düşünən Heydər Əliyev zamanı qabaqlayaraq Azərbaycanın gələcək inkişafı və müstəqilliyi üçün mühüm təminatlar yaratmışdı. Məhz həmin illərdən etibarən xalqımızın milli mənlik şüuru yüksəlmiş, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atılmışdır. Xalqın həyat səviyyəsinin yüksəldilməsi üçün bir sıra mühüm sosial-iqtisadi islahatlar həyata keçirilmiş, Azərbaycan Sovetlər Birliyinin ən inkişaf etmiş respublikaları sırasında yer almışdı. Hələ o zamanlarda Heydər Əliyev totalitar rejimin sərt təzyiqlərinə baxmayaraq, ən qlobal problemləri belə məharətlə həll edərək, ölkəmizin siyasi və iqtisadi müstəqilliyi üçün münbit şərait yaratmağa müvəffəq olmuşdu. Azərbaycan xalqının müstəqillik yolunda qarşılaşacaq çətinlikləri özünəməxsus intuisiya ilə görüb hiss edən Ümummilli Liderimiz ölkəmizin strateji məqsədləri naminə mühüm addımlar ataraq milli dövlətçilik ənənələrimizi zənginləşdirmişdir. O vaxtlar Heydər Əliyevin adı təkcə respublikamızın əhalisi deyil, keçmiş İttifaq dövlətinin bütün vətəndaşları üçün ədalətin rəmzinə çevrilmişdi. Hələ o vaxtlar biz Ümummilli Liderimizin beynəlxalq aləmdəki ad-sanı, şan-şöhrəti ilə fəxr edirdik.

Heydər Əliyevin hərtərəfli dəstəyi ilə respublikamızda böyük quruculuq işləri həyata keçirilirdi. Yeni elm, təhsil, səhiyyə müəssisələri, sənaye obyektləri tikilib istifadəyə verilirdi. Azərbaycanın digər respublikalardan asılılığı getdikcə aradan qaldırıldı. Bütün bunlar Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmış siyasət idi. Tarixi baxımdan o qədər də böyük olmayan vaxt ərzində Azərbaycan sürətli inkişaf yolu keçərək digər respublikaları üstələdi. Halbuki, Heydər Əliyevdən əvvəl Azərbaycan bütün respublikalardan, hətta tarixi torpaqlarımız üzərində yaradılan Ermənistandan geri qalırdı və Azərbaycan bütün sahələrdə tənəzzüldən qurtularaq tərəqqiyə doğru istiqamətləndi. O dövrdə görülən işlər müstəqil Azərbaycanın təməli idi.

Dövlət müstəqilliyimizin bərpasından sonra müdrik xalqımız hadisələri və vəziyyətdən çıxış yolunu düzgün müəyyənləşdirdi. Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışını təmin etmək xalqın qəti və ən düzgün qərarı idi. Xalqın Ulu Öndərə güvənməsi, ona etibar etməsi təsadüfi deyildi. Onun sovet dövründə Azərbaycanda və Naxçıvan Ali Məclisinin sədri olduğu vaxtlarda gördüyü işlər xalqın diqqətindən yayınmamışdı. Bütün bunları nəzərə alan xalqımız yekdilliklə Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə keçməsini tələb etdi və buna nail oldu.

Ömrünü xalqın yaxşı yaşaması naminə apardığı mübarizəyə həsr edən Ulu Öndər milyonlarla insanın çağırışlarına hörmətlə yanaşaraq ölkəmizdə rəhbərlik missiyasını öz üzərinə götürdü. Təbii ki, xalqın taleyinə biganə yanaşa bilməzdi. Nadir tarixi şəxsiyyətin qayğısı ilə Azərbaycan səmasından qara buludlar çəkildi. O böyük zəhmətlər bahasına şər qüvvələrə qalib gəldi, ölkədə sabitliyin yaradılmasına nail oldu. Zəngin dövlətçilik təcrübəsinə, yüksək idarəçilik, rəhbərlik qabiliyyətinə malik olan Heydər Əliyevin gördüyü işlər sayəsində ölkəmizin intibah dövrü başlandı. Azərbaycan dünyaya inteqrasiya olundu, sivil, dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu sahəsində uğurlu addımlar atıldı. Bütün sahələrdə islahatların aparılmasına qərar verildi.

Dahi rəhbərin müdrikliyi və uzaqgörən siyasəti nəticəsində qısa müddət ərzində ölkədə vətəndaş həmrəyliyi bərpa edildi, anarxiya və xaosa son qoyuldu. milli ordu formalaşdı. Belə ki, 70-ci illərin əvvəlində ulu öndərin qətiyyəti və iradəsi nəticəsində milli hərbi kadrların yetişdirilməsi üçün baza rolunu oynayacaq Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail olması onun ən mühüm tarixi xidmətlərindən biridir. Azərbaycan müstəqilliyini bərpa edib milli ordu quruculuğuna başlayanda bu məktəb hərbi kadr hazırlığının mühüm bazasına - tədris ocağına çevrildi. Bu, Ulu Öndər Heydər Əliyev uzaqgörənliyinin, vətənpərvər liderin xalqı qarşısında tarixi xidmətinin əyani təsdiqidir.

Bundan əlavə, ölkənin ilk demokratik Konstitusiyası qəbul edildi, söz və mətbuat azadlığı bərqərar edildi, iqtisadiyyatın bütün sahələrində, hüquqi-demokratik islahatlar həyata keçirildi, neft strategiyası uğurla reallaşdırıldı. Onu da etiraf etməliyik ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə gəlməsəydi, indi nə müstəqil Azərbaycan dövləti, nə də onun xoşbəxt azad vətəndaşları vardı.

Bugünkü azad, demokratik, güclü və qüdrətli Azərbaycan Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin bəhrəsidir və onun keçdiyi həyat yolu gələcək nəsillərə əvəzsiz nümunədir.

**Kamilə ƏLİYEVA,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, biologiya elmləri doktoru, professor.**